## *TARİXİN TƏDRİSİ METODİKASI*

UOT 37.01.

***Ülviyyə Fazil qızı Osmanova,***
*İsmayıllı rayonu E. Məmmədov adına*
*3 nömrəli məktəb-liseyinin tarix müəllimi*

# TARİX FƏNNİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ TƏDQİQATÇILIQ BACARIQLARININ FORMALAŞDIRILMASININ SƏMƏRƏLİLİYİ

***Ульвия Фазиль гызы Османова,***
*учитель истории школы-лицея № 3 Исмаиллинского района*

# ЭФФЕКТИВНОСТЬ ФОРМИРОВАНИЯ ИССЛЕДОВАТЕЛЬСКИХ УМЕНИЙ УЧАЩИХСЯ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ

***Ulviya Fazil Osmanova,***
*history teacher of school- lyceum № 3 of Ismayilli*

# EFFİCİENCY OF THE FORMATİON OF RESEARCH TEACHİNG STUDENTS İN TEACHİNG HİSTORY

**Xülasə:** Məqalədə qeyd olunur ki, şagirdlərdə tədqiqat bacarıqlarının formalaşması materialın tərkibindən, dərsin quruluşundan və şagirdlərin yaş xüsusiyyətlərindən asılıdır. Tarix fənninin tədrisində tədqiqat metodunun tətbiqi şagirdlərə dərsliklərdən düzgün istifadə etmək, tarixi sənədlərlə işləmək, cədvəllərdən, tarix xəritələrindən və diaqramlardan istifadə etmək, nəticə çıxarmaq imkanı verir.
***Açar sözlər:*** *tarix, fənn, şagirdlər, bacarıqlar, vərdişlər, müstəqil işlər, idrak fəaliyyəti*

**Резюме:** В данной статье отмечается, что формирование у учащихся исследовательских умений и навыков зависит от содержания материала, структуры урока и возрастных особенностей учащихся. Использование исследовательского метода при преподавании истории воспитывает у учащихся умение и навыки, правильно использовать учебники, работать над историческими документами, уметь использовать таблицы, исторические карты, составлять схемы и диаграммы, делать выводы и т. д.
***Ключевые слова:*** *история, предмет, учащиеся, умения, навыки, самостоятельные работы, познавательная деятельность*

**Summary:** In article it is underlined, that use of research methods and skills depends on the maintenance of a material, a structure of a lesson and age features of pupils. Use of a research method brings up skills at pupils, correctly to use textbooks, to work over historical documents, to be able to use tables, historical cards, to make schemes and diagrammes, to do conclusions etc.
***Key words:*** *history, subject, students, cognitive activity historical knowledge, skills, toy respect to work, cognitive activity*

Psixoloq S.İ. Rubinşteyn yazır: "Əgər tarixi biliklər təfəkkür prosesində əldə edilirsə, təfəkkür prosesinin özü də müəyyən biliklərin sayəsində cərəyan edir. Əgər təfəkkür aktı yeni biliklərin əldə edilməsinə gətirib çıxarırsa, müəyyən biliklər də, öz növbəsində, həmişə təfəkkürün istinad vəzifəsini görür". Buradan belə nəticə çıxarmaq olar ki, dərs prosesində biliklərin formalaşdırılması zamanı şagirdlərin təfəkkürünün müstəqilliyinə nail olmaq, onları informasiyaların bolluğu ilə zənginləşdirmək olar. Bu zaman tədqiqatçılıqdan istifadə güclənir və şagird-

lərin idrak fəaliyyəti artır. Dərs prosesində şagirdlərə məntiqi düşünməyi, müstəqil bilik almağı, hadisələrə və proseslərə tənqidi yanaşmağı öyrədib, yaradıcı təfəkkürü inkişaf etdirmək lazımdır. Buna isə yeni təlim üsullarının, o cümlədən tədqiqatçılıq üsulunu tətbiq etməklə nail olmaq olar. Ona görə də müəllim şagirdləri müstəqil işin icrasına cəlb etməli və onları əməli fəaliyyətə hazırlamaq vəzifəsini qarşıya qoymalıdır.

Müşahidə göstərir ki, dərsin bütün mərhələlərində şagirdlərin müxtəlif növlü fəaliyyətini uzlaşdıran məşğələlərə az təsadüf edilir.

Bəzən müəllimlər dərsdə yeni materialın öyrənilməsi mərhələsində şagirdlərin müstəqil işinin təşkilinə diqqət yetirmirlər. Halbuki, həvəslə çalışan, fəal fikri iş görən şagirdlər təlimdə müvəffəqiyyət qazana bilər.

Tədqiqatçılıq fəaliyyəti hadisələrin səbəbi ilə təbiət hadisələri arasındakı əlaqə və münasibətlərin qurulmasını tələb edir. Sonra hər hansı hadisə və ya onun nəticələrinin səbəbi haqqında fikirlər irəli sürülür. Bu fikirlərin yoxlanılması şagirdlərin fəallıq və müstəqilliklərinin daha yüksək səviyyəsini təmin edir, hadisələrin səbəb və əlaqələri haqqında təsəvvürlərini formalaşdırmağa imkan verir.

Təcrübə göstərir ki, tarixi anlayışların formalaşdırılması üçün müəllim onların məzmununu şərh etməklə kifayətlənməməli, qavrama, dərketmə, yadda saxlama və tətbiqetmə proseslərinə riayət etməklə şagirdləri zəruri tapşırıqların icrasına cəlb etməlidir. Odur ki, proqram materialları şagirdlərə elə çatdırılmalıdır ki, onların hafizə, təfəkkür, təxəyyül və s. psixi fəaliyyət formaları əlaqələndirilsin, normal zehni fəaliyyətləri təmin olunsun. Bu isə müəllimdən tələb edir ki, hər bir dərsə hazırlaşarkən təlim materiallarının məzmununun tələb etdiyi tapşırıqları konkret olaraq müəyyənləşdirsin və dərs prosesində bütün şagirdlərin həmin tapşırıqları icra etmələrinə nail olsun.

Bunun üçün proqram bölmələrinin sonunda verilmiş “şagirdlərin əsas bacarıqları” tövsiyəsindən istifadə oluna bilər. Bu, tarixi anlayışların mənimsənilməsi üçün tələb olunan tapşırıqları müəyyənləşdirməkdə müəllimə istiqamət verə bilər. Bu tövsiyənin əsas məqsədi mövzunun məzmununa müvafiq əlaqələndirmə, müqayisəetmə, təhliletmə, ümumiləşdirmə aparıb, nəticə çıxarmaqla şagirdlərin biliyini üzə çıxarmaq, onlarda bacarıq və vərdişləri formalaşdırmaqdır. Müəllimin başlıca vəzifəsi şagirdləri tədqiqatçılığa sövq etməklə hər bir mövzuya aid müvafiq bacarıqları seçib dəqiqləşdirməkdir.

Müəllim şagirdlərdə konkret mövzular üzrə müstəqil bilik əldə etmək, məlumat, məruzə və referat hazırlamaq, icmal və testlər, cədvəllər tərtib etmək, yoldaşları, valideynləri qarşısında çıxış etmək, ümumi məktəb tədbirlərində iştirak etmək kimi bacarıqlar tərbiyə etməlidir.

Şagirdlər tarixə dair biliklərini tətbiq etmək bacarığına malik olduqda müasir həyat hadisələrindən baş çıxara bilərlər. Çünki dərin biliklərin və bacarıqların olmaması heç bir qərar qəbul etməyə qadir olmayan, dar ixtisaslı, birtərəfli mütəxəssislərin yetişməsinə səbəb olur. Bunların da xalq təsərrüfatına, iqtisadiyyata, ekologiyaya vurduqları ziyan hesablanmazdır. Odur ki, müasir məktəbdə tədqiqatçılıq üsulunun tətbiqi zəruridir.

Tarix dərslərinin ədəbiyyat, insan və cəmiyyət, iqtisadiyyat, riyaziyyat və digər tədris fənləri ilə inteqrasiyası bir çox vacib hadisələrə hərtərəfli baxmağa və tədqiqatçılıq üsulundan istifadə etməyə geniş imkan yaradır.

Tədqiqatçılıq üsulunu tətbiq etməklə mövzunun şagirdlər tərəfindən daha dərindən mənimsənilməsi üçün “yaddaş sxemi”ndən istifadə etmək olar. Məsələn, şagirdlər tarixi şəxsiyyətlərin həyat və fəaliyyətini öyrənərkən onların həyatını, şəxsi keyfiyyətlərini, tarixdəki rolunu nəzərdən keçirir, həmin tarixi şəxsiyyətə münasibətlərini bildirirlər.

Tədqiqatçılıq üsulunun tətbiqi prosesində biliyin şüurlu, məqsədyönlü və möhkəm şəkildə qazanılması üçün maddi-texniki bazanın minimum tələblərə cavab verməsi olduqca vacibdir. Maddi-texniki bazaya xəritələr, şəkillər, albomlar, kinofilmlər, diafilmlər, diapozitivlər, televizor və s. kimi tədris vəsaitləri daxildir.

Tədqiqatçılıq üsulundan istifadə edən müəllimin vəzifəsi şagirdlərə ümumiləşdirici nəticələri konkret hadisələrlə tutuşdurmağı, hadisələrə öz şəxsi münasibətini bildirməyi öyrətməkdir. Bunun üçün şagirdlərin əşyalara yenidən baxmağına nail olmaq lazımdır. Bu məqsədlə şagirdlər müqayisələr aparır, ümumiləşdirir, fikir irəli sürür, bir müşahidədən alınmış nəticələri digər hadisəyə aid edir. Sinifdə tarix guşəsi olduqda müəllim ayrı-ayrı mövzuların tədrisi

zamanı oradakı materiallara (sxem, cədvəl, diaqram, xəritə və s.) müraciət edə bilər.

Tədqiqatçılıq üsulunun tətbiq olunduğu bu tapşırığın icrası şagirdlərin işləmək qabiliyyətini inkişaf etdirir, onlarda tariximizə marağı artırır.

Bəzi mövzuların tədrisindən sonra təşkil olunan ekskursiyalarda şagirdlərə müxtəlif tədqiqatçılıq işi aparmaq tapşırılır (tarixi abidələr haqqında qeydlər yazmaq, bəzi xəritələr tərtib etmək və s.). Şagirdlərin təlim prosesində qazandıqları biliklər ekskursiya zamanı daha da möhkəmlənir, idrak fəaliyyəti güclənir.

Şagirdlərin idrak fəallığım inkişaf etdirmək müasir təhsilin aktual problemlərindən biridir. Çünki insan həyatda baş verən hadisələri nəinki qavramalı, həm də təhlil etməli, onlardan baş çıxarmağı bacarmalıdır. Bu zaman tədqiqatçılığın həm nəzəri, həm də praktik əhəmiyyəti daha da artır.

Şagirdlərin tədqiqatçılıq fəallığını təşkil edən müəllim sinifdəki hər bir uşağın müstəqilliyini təmin etməlidir. Bunun üçün şagirdlərin düşünmə qabiliyyətinin dərinləşdirilməsi, onların öz fikrini müdafiə etməklə qazandıqları bilikdən istifadə etməsi, cavab verən şagirdlərin danışığına əlavələr etməsi və s. lazımdır.

Şagirdlərin tədqiqatçılıq bacarığı və vərdişlərini inkişaf etdirmək üçün onlar xəritəni müstəqil oxumağı, izah olunan tarixi faktın vaxtını göstərməyi, cavabları planlaşdırmağı bacarmalıdırlar.

Şagirdlərin xəritə üzərindəki işi onların məkan haqqındakı təsəvvürlərini tamamlayır.

Tarix dərslərində şagirdlərin tədqiqatçılıq fəaliyyətini inkişaf etdirməsi üçün onlara müxtəlif cədvəllər, sxemlər, diaqramlar və s. tərtib etmək kimi tapşırıqlar verilir.

Beləliklə, təlim materialının məzmunundan və xarakterindən asılı olaraq, ən sadə və ən az vaxt tələb edən işlərdən başlayaraq, gərgin fəaliyyət tələb edən mürəkkəb və çox vaxt tələb edən tapşırıqlara qədər müxtəlif xarakterli tədqiqat işləri tətbiq edilə bilər.

**Məqalənin elmi yeniliyi:** tarixin tədrisi prosesində tədqiqatçılıq üsulundan istifadə etməklə şagirdlərin idrak fəallığı yüksəlir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi:** tədqiqatçılıq üsulu şagirdlərin müstəqilliyini artırır və tədris müəssisələrində tətbiq edilir.

**Ədəbiyyat:**


1. Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün tarix proqramları. Bakı, 2000.
2. Kərimov Y. Pedaqoji tədqiqat metodları. Bakı, 2009.
3. Cəbrayılov İ. Azərbaycan tarixinin tədrisi metodikası. Bakı, 2006.
4. Əmirov M. Orta məktəbdə tarixin tədrisinin aktual problemləri. Bakı, 2009.
5. Məlikov R. Tarixin tədrisində müasir üsullar. Bakı, 2000.


**E-mail:** osmanova_ü@mail.ru

**Rəyçi:** *ped.ü.elm. dok.* İ.H. Cəbrayılov
**Redaksiyaya daxil olub:**12.12.2018.